

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 102 (21.003)

31 may 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## S.T.Məmmədovun gənc istedadların xüsusi təqaüdünə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli 46-IV FR nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Şahmat idman növü üzrə xüsusi istedadı olan Naxçıvan şəhər Məmməd Cəfər Cəfərov adına 14 nömrəli tam orta məktəbin şagirdi Məmmədov Sadiq Teymur oğlunun adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılsın və o, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 may 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Açılış tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov demişdir ki, son illər muxtar respublikanın daxili işlər orqanlarının fəaliyyətinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, maddi-texniki baza xeyli möhkəmləndirilmişdir. Yaradılan şərait qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə imkan verir. Bu gün muxtar respublikada yol hərəkəti təhlükəsizliyinin təmin olunması da diqqət mərkəzində saxlanılır. Yol infrastrukturunun tamamilə yenidən qurulması, magistral yollarda sürətölçən radar sisteminin və nəzarət-izləmə kameralarının quraşdırılması, Dövlət Yol Polisi İdarəsi əməkdaşlarının nəqliyyat və müasir texniki avadanlıqlarla təmin olunması hərəkətin təhlükəsizliyinə və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına xidmət edir. Şərur Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Əhməd Əhmədov yaradılan şəraitə görə muxtar respublika daxili işlər orqanlarının şəxsi heyəti adından minnətdarlığını bildirmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi və istifadəçiləri təbrik edərək demişdir: “Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrin inkişafına təkan vermişdir. Yaradılan şərait ölkə iqtisadiyyatının dinamik inkişafını şərtləndirmiş, insanların sosial rifahı yaxşılaşmış, yaşayış səviyyəsi yüksəlmişdir. Həyat səviyyəsinin yaxşılaşmasının əsas göstəricilərindən biri də insanların avtomobillərlə təmin olunmasıdır”.

Ali Məclisin Sədri demişdir: “İstismar olunan hər bir avtomobilə vaxtlı-vaxtında texniki xidmətin göstərilməsi vacib şərtdir. Çünki avtomobillərin texniki baxışdan vaxtında keçirilməməsi yol-nəqliyyat hadisələrinin baş verməsinə şərait yaradır. Ona görə də istər vətəndaşlar, istərsə də dövlət orqanları avtomobilləri müayinə mərkəzlərində mütəmadi olaraq texniki baxışdan keçirməli, onların istismara yararlılığı yoxlanılmalıdır. Bütün bunlar da yol hərəkətində təhlükəsizliyin təmin olunmasına, insanların sağlamlığının və əmlakının qorunmasına xidmət edir”.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, avtomobillərin rahat və təhlükəsiz hərəkətinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər muxtar respublikada bir müayinə mərkəzi fəaliyyət göstərirdi. Lakin avtomobillərin sayının artması yeni müayinə mərkəzlərinin yaradılmasını da zəruri etmişdir. Şərur Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi sakinlərin rahatlığının təmin olunmasına, onların büdcələrinə və vaxtlarına qənaət etməsinə imkan verəcəkdir. Artıq bu ərazidə yaşayan insanlar Naxçıvan şəhərinə getmədən müayinə mərkəzində öz nəqliyyat vasitələrini texniki baxışdan və sığorta qeydiyyatından keçirə biləcəklər.

Ali Məclisin Sədri avtomobillərin texniki baxış və sığorta qeydiyyatının vaxtlı-vaxtında aparılması, vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsi barədə tapşırıqlar vermiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 2 mərtəbəli binanın ümumi sahəsi 312 kvadratmetrdir. Müayinə mərkəzinin 1-ci mərtəbəsində avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal, 2-ci mərtəbədə isə bufet və iş otağı yerləşir.

Müayinə mərkəzində nəqliyyat vasitələrinin dövlət texniki baxışı və baxışlararası müddətdə texniki vəziyyətinin yoxlanılması üçün hərtərəfli şərait vardır. Binada 1 ədəd kompüter, 3 ədəd monitor, minik və yük avtomobillərinin əyləc sisteminin, mühərrikdən çıxan qazların, sükanın idarəetmə qollarının yoxlanılması, işıqların tənzimlənməsi, şinlərin protektor naxışlarının ölçülməsi üçün Türkiyə, İtaliya və Koreya istehsalı olan avadanlıqlar quraşdırılmışdır.

Bildirilmişdir ki, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən, kütləsi 3,5 tondan yuxarı olan yük avtomobilləri, avtobuslar, təhlükəli yüklərin daşınması üçün xüsusitəyinatlı nəqliyyat vasitələri ildə bir dəfə, kütləsi 3,5 tondan aşağı olan yük və minik avtomobilləri istehsal olunduğu tarixdən 4 il keçdikdə iki ildə bir dəfə, istehsal olunduqları vaxtdan 10 il keçdikdə isə ildə bir dəfə texniki baxışa təqdim olunmalıdır.

Texniki baxış zonasında bütün zəruri mühəndis kommunikasiya sistemləri quraşdırılmışdır. Baxış zonasında 5 duracaq vardır. Quraşdırılan müasir avadanlıqlar vasitəsilə avtomobillərin mühərriklərindən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğu, nəqliyyat vasitələrinin işıq sistemi, sükan mexanizmi və əyləc sisteminin vəziyyəti yoxlanılır. Avtomobillərin texniki vəziyyəti barədə göstəricilər birbaşa mərkəzi kompüterə ötürülür.

Binanın həyətində 2340 kvadratmetr sahəyə asfalt salınmış, abadlıq işləri aparılmışdır.

## Şərur Peşə Liseyi yeni binada fəaliyyət göstərəcəkdir



Muxtar respublikada peşə ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, peşə təhsili müəssisələrinin müasir texnika, texnologiya və avadanlıqlarla təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq, Şərur Peşə Liseyi üçün yeni tədris korpusu və yataqxana binası tikilmişdir.

*Ardı 2-ci səhifədə*

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Peşə Liseyi üçün inşa olunan yeni kompleksə baxmış, görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 270 yerlik tədris korpusu 4 mərtəbədən ibarətdir. Burada 14 qrupda 11 peşə üzrə kurslar təşkil ediləcəkdir. Binada texniki və tədris vəsaitləri ilə təchiz olunmuş emalatxanalar, sinif otaqları, kompüter otağı, idman zalı və elektron lövhəli siniflər istifadəyə veriləcəkdir. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan yataqxana binasında isə müdavimlərin istirahəti və yaşayışı üçün lazımi şərait yaradılacaqdır.

Binanın həyətində açıq idman qurğuları istifadəyə veriləcək, abadlıq işləri aparılacaq, yaşıllıqlar salınacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə başa çatdırılması, binanın həyətində sürücülük kursu üçün təlim meydançasının yaradılması barədə tapşırıqlar vermişdir.

## Şərur şəhərindəki yaşayış binaları yenidən qurulur



Yaşayış binalarının kommunal-məişət şəraitinin yaxşılaşdırılması sakinlərin rahatlığının təmin olunmasına hesablanmış tədbirlərdəndir. Artıq muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərində də bu sahədə ardıcıl tədbirlər görülür. Ötən ildən başlayaraq Şərur şəhərinin Heydər Əliyev prospektindəki 50 nömrəli yaşayış binasında yenidənqurma işləri aparılmışdır.

Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaşayış binasına baxmışdır.

Bildirilmişdir ki, 6 mərtəbəli bina 10 mənzildən ibarətdir. Yenidənqurma işləri zamanı binanın fasadı dəyişdirilmiş, lift quraşdırılmış, kommunikasiya xətləri yenilənmişdir. Binada sakinlərin rahatlığı təmin olunmuş, lazımi kommunal-məişət şəraiti yaradılmışdır.

Ali Məclisin Sədri bundan sonra da Şərur şəhərində abadlıq işlərinin davam etdirilməsi, yaşayış binalarının layihələndirilərək yenidən qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Təbrizdə 28 May – Respublika Günü qeyd olunmuşdur

*Mayın 28-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğu tərəfindən Respublika Günü münasibətilə rəsmi qəbul təşkil edilmişdir.*



Əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Təbrizdəki Baş konsulu Əli Əlizadə çıxış edərək demişdir ki, 1918-ci ildə – ermənilərin xalqımıza qarşı soyqırımı törətdiyi və ərazi iddiaları apardığı bir dövrdə yaranan Azərbaycan Xalq Cümhuriyyəti hüquqi dövlət quruculuğu istiqamətində uğurlu yol qət etmişdir. Xalqımızın şərəfli mübarizə tarixini özündə yaşadan Azərbaycan Xalq Cümhuriyyəti dövlətçiliyimiz üçün mühüm əhəmiyyətli və taleyüklü qərarlar qəbul etmişdir. Qeyd olunmuşdur ki, ötən əsrin 90-cı illərində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası həmin dövrdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Ancaq ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkəmiz düşdüyü bəlalardan xilas edilmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmiş, əbədi, dönməz xarakter almışdır.

Baş konsul bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini bildirmiş, ölkəmizin dost və qonşu dövlət olan İranla əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırmışdır.

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin valisi İsmayıl Cabbarzadə İran-Azərbaycan əlaqələrindən danışmış, 28 May – Respublika Günü münasibətilə təbriklərini çatdırmışdır.

Çıxışlardan sonra Azərbaycanın sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunmuş, Azərbaycan xalq mahnıları səslənmiş, ziyafət verilmişdir.

Rəsmi qəbulda İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti valiliyinin məsul şəxsləri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

*2 iyun mülki aviasiya işçilərinin peşə bayramıdır*

## Naxçıvanda mülki aviasiya sisteminin inkişafına hərtərəfli qayğı göstərilir

*1938-ci il iyunun 2-də Azərbaycanda ilk aviasiya qrupu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən, həmin tarix hər il ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.*

Azərbaycanda bu nəqliyyat növünün dünya standartları səviyyəsinə qaldırılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Həyatımızın bütün sahələrinin inkişafını diqqətdə saxlayan ulu öndərimizin Azərbaycana rəhbərliyinin birinci dövründə Gəncədə, Yevlaxda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Naftalanda hava limanları tikilmişdir. Bu limanlar "YAK-40" təyyarələrini qəbul etmək imkanına malik idilər. Müstəqilliyimizin ilk illərində Azərbaycanda digər sahələr kimi, aviasiya da ağır vəziyyətə düşmüşdü. Böyük dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahədəki problemlər də aradan qaldırılmışdır.

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. 1800 metrlik uçuş-enmə zolağı olan bu hava limanı o dövrün tələblərinə hesablanmışdı. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı.

Bütün bu reallıqları nəzərə alan ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Hava Limanı ilə bağlı iki dəfə qərar qəbul etmişdir. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir. O vaxta qədər hava limanı üçüncü dərəcəli təyyarələri qəbul edirdisə, uçuş-enmə zolağının yenidən qurulması nəticəsində hava limanı "TU-154" tipli təyyarələri qəbul etməyə başladı. Gün ərzində 800-1000 nəfər hava limanının xidmətindən istifadə etmək imkanı əldə etdi. Hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bunu nəzərə alan ulu öndər hava limanının yenidən qurulması barədə qərar qəbul edərək 2002-ci il avqustun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirmiş və həmin müşavirədə demişdir: ***"Naxçıvanda yaşayan insanların təyyarədən istifadəyə ehtiyacı bütün başqa yerlərdə yaşayan insanlara nisbətən çoxdur. Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır".***




2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir. Burada uçuşları idarəetmə məntəqəsi, VİP salonu, yük terminalı, yanacaq anbarları, yanğınsöndürmə binası, 2 istilik mərkəzi, transformator yarımstansiyaları, su anbarları istifadəyə verilmiş, avtomobil dayanacağı yaradılmışdır. Binanın ikinci mərtəbəsində müasir standartlara cavab verən yüksək səviyyəli avianaviqasiya qurğuları quraşdırılmışdır. Hava limanından Naxçıvan-Culfa magistralına qədər 350 metr uzunluğunda beton yol salınmış, ətrafdakı ərazidə böyük yaşıllıq zolağı yaradılmışdır. 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir.

Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından ölkəmizin şəhərləri ilə yanaşı, İstanbul və Moskva şəhərlərinə cədvəl üzrə müntəzəm uçuşlar həyata keçirilir. Hava limanının gələcək perspektiv planında uçuşların sayının və əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası müntəzəm əsasda möhkəmləndirilir, hava limanına müxtəliftəyinatlı və yüksək texniki göstəriciyə malik yeni maşın-mexanizmlər verilir. Həmçinin hava limanında uçuşların təhlükəsizliyinin təmin olunması məqsədilə bütün işıq-elektrik sistemi, rabitə qurğuları daim texniki baxışdan keçirilir, istifadə olunan maşın-mexanizmlər əsaslı təmir edilərək saz vəziyyətdə saxlanılır. Sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, 2011-ci ildə hava limanında yeni VİP salonu istifadəyə verilmiş, VİP salonuna Naxçıvan-Culfa magistralından yeni yol çəkilmiş, ərazidə avtomobil dayanacaqları yaradılmış, ətrafda yaşıllaşdırma işləri aparılmış, geniş park salınmışdır. Hava limanının beton örtüklü enmə zolağında və təyyarə dayanacağında əsaslı təmir işləri aparılmışdır.

Bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni inzibati binanın açılışını etmişdir. Müasir səviyyədə inşa olunan binada işçilərin səmərəli fəaliyyəti təmin edilmişdir. Burada hava gəmilərinə texniki xidmət sahəsi, daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava hərəkətinin idarə edilməsi, aviasiya-metrologiya və digər aidiyyəti xidmətlər üçün hərtərəfli şərait vardır. Binada akt və konfrans zalları, həmçinin işçilərin xarici dillərə yiyələnmələri üçün tədris otağı yaradılmışdır.

Yeni inzibati bina istifadəyə verildikdən sonra Naxçıvan Beynəlxalq Hava Limanının birinci və ikinci mərtəbələrinin gəliş və təyyarələrə minik zalları üçün ayrılması nəzərdə tutulmuşdur. Bu məqsədlə aerovağzal binasında yenidənqurma işləri aparılır. Burada beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcək, ikinci mərtəbədən teleskopik traplar vasitəsilə hava gəmilərinə miniklər təşkil ediləcəkdir. Aerovağzal binasının yenidən qurulması və bərpasından sonra hava limanının sərnişin dövriyyəsi saatda 450-500 nəfərə çatacaqdır.

Bu gün hava limanında daşımaların təşkili və aviasiya təhlükəsizliyi xidmətləri Beynəlxalq Aviasiya Təhlükəsizlik təlimatlarına uyğun olaraq qurulmuşdur. Bununla yanaşı, şəxsi heyətin Milli Aviasiya Akademiyasına müvafiq ixtisaslar üzrə ixtisasartırma, ilkin hazırlıq kurslarına göndərilməsi ixtisaslı kadrlara olan tələbatın ödənilməsinə şərait yaradır.

Muxtar respublikamızda mülki aviasiya işçilərinə böyük diqqət və qayğı göstərilir, onların əməkhaqları artırılır, fərqlənənlərin əməyi qiymətləndirilir. Naxçıvan Beynəlxalq Hava Limanının şəxsi heyəti uçuşların təhlükəsizliyini təmin etmək və sərnişinlərə nümunəvi xidmətin səviyyəsini yüksəltmək üçün səylərini daha da artırır.

**"Şərq qapısı"**

## Dünya Gənc Alimlərinin Beynəlxalq Bakı Forumunun iştirakçıları Naxçıvanın füsunkar təbiətinə, möhtəşəm tarixinə, sosial-iqtisadi inkişafına və yüksək elmi potensialına heyran qalmışlar



*Mayın 30-da Dünya Gənc Alimlərinin Beynəlxalq Bakı Forumunun iştirakçıları Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşlar.*

Forum çərçivəsində keçirilmiş səkkiz paralel sessiyadan biri olan “Texniki elmlər” sessiyasının 80 nəfərədək iştirakçısının Naxçıvana səfəri Batabat Astrofizika Rəsədxanasından başlanmışdır.

Rəsədxanada qonaqlara bildirilmişdir ki, dəniz səviyyəsindən 2050 metr yüksəklikdə yerləşən rəsədxana binasının günbəzində “SEYYS-600” tipli teleskop quraşdırılmışdır. Almaniya istehsalı olan teleskopun qurulması prosesində yerli mütəxəssislərlə yanaşı, Moskva Dövlət Universiteti Astronomiya İnstitutunun fənn laboratoriyasının əməkdaşları da iştirak etmişlər. Muxtar respublika ərazisinin astronomik şəraiti normal, səması təmiz və şəffaf olduğundan digər rəsədxanalardan fərqli olaraq, bu stansiyada Günəşdən başqa, bütün göy cisimlərini – planetləri, kometaları, asteroidləri, ulduzları və yaxın qalaktikaları müşahidə və tədqiq etmək mümkündür. Alimlər Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə verilən ətraflı məlumatları maraqla dinləmişlər.



Qonaqlar Batabat yaylağının füsunkar gözəlliyini də seyr etmişlər. Müxtəlif torpaq tiplərinin inkişaf tapdığı ərazidə 2899 bitki növünün yayılması, geniş ərazidə 285 növ faunanın məskunlaşması barədə məlumatları dinləyən qonaqlar Naxçıvanın ecazkar təbiətinə heyranlıqlarını gizlətməmişlər.

Naxçıvan Dövlət Universiteti ilə tanış olan alimlərə bildirilmişdir ki, hazırda NDU-da 11 fakültədə 47 ixtisas üzrə 5 min nəfərədək tələbə təhsil alır. Universitetdə ali təhsilin bakalavr, magistratura və doktorantura səviyyələri üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu ali təhsil ocağında 10 ölkədən 200 nəfərdən çox xarici tələbə təhsil alır. NDU ABŞ, İngiltərə, Çin, Rusiya, Fransa, Almaniya, İspaniya, Türkiyə və digər ölkələrin universitetləri ilə geniş əlaqələrə malikdir.

Alimlər Naxçıvan şəhərindən 14 kilometr aralıda yerləşən Duzdağ Fizioterapiya Mərkəzində də olmuşlar. Qonaqlara bildirilmişdir ki, burada duz layları arasında oksigen 20 faiz təşkil edir. Həmçinin duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir.

Qeyd edilmişdir ki, Duzdağ Fizioterapiya Mərkəzində, əsasən, allergik xəstəliklərdən, xüsusilə də bronxial-astmadan əziyyət çəkənlər müalicə olunurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma qeydə alınır.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində də olan qonaqlar burada naxçıvanlı gənc alimlərlə görüş keçirmiş, diskussiyalar aparmışlar. Onlara Naxçıvan Muxtar Respublikasının tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı barədə ətraflı məlumat verilmişdir.

Daha sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olan alimlərə bildirilmişdir ki, XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanmış, tarixi ərazidə yenidənqurma işləri aparılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır.

Kompleksin ətrafında və daxilində geniş abadlıq-quruculuq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış və yaşıllıq zolaqları salınmışdır.

Kompleksin muzeyindəki eksponatlarla maraqlanan alimlərə məlumat verilmişdir ki, orijinal tərtibatı ilə seçilən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar xronoloji ardıcıllıqla düzülmüşdür. Eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl VIII-II minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri muzeyin qiymətli eksponatlarındandır. Burada həmçinin xalça və XIX əsrə aid milli geyimlər də nümayiş olunur.

Naxçıvan Muxtar Respublikasının ərazisindəki abidələrin 600-ə yaxınının dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi olması faktı alimlərin böyük marağına səbəb olmuşdur. Qeyd edilmişdir ki, buranın tarixi əhəmiyyətini artıran mühüm amillərdən biri də qala divarları yaxınlığında Nuh Peyğəmbərin məzarüstü türbəsinin olmasıdır.

Mayın 30-da Dünya Gənc Alimlərinin Beynəlxalq Bakı Forumunun iştirakçılarının Naxçıvana səfəri başa çatmışdır.

**Xəbərlər şöbəsi**

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilmiş inşa yazı müsabiqəsi və məktəblilərin fənn olimpiadası qaliblərinin dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində mükafatlandırılması mərasimi olub.*

## Müsabiqəyə və fənn olimpiadasına yekun vurulub



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev bildirib ki, belə tədbirlər Azərbaycan dövlətinin qurucusu və memarı ulu öndər Heydər Əliyevin bu gün hər bir gənc üçün örnək olan həyatı və siyasi fəaliyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. “Görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizdə təhsilin müasir standartlar səviyyəsinə qaldırılması üçün cahanşümul tədbirlər həyata keçirib”, – deyən təhsil naziri ulu öndərin “hər bir xalqın gələcəyi xeyli dərəcədə onun təhsilinin hansı səviyyədə olmasından asılıdır” kəlamını xatırladaraq gənclərin doğma Vətənə bağlı ruhda böyüməsi, zəngin biliklərə yiyələnməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsinin vacibliyini bildirib. Piri Nağıyev vurğulayıb ki, dahi rəhbərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasət bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Hər il diyarımızda yeni məktəb binaları inşa olunur, təhsil ocaqlarının maddi-texniki bazası gücləndirilir, tədrisin yüksək səviyyədə qurulması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Valideyn Həsən Həsənov çıxış edərək belə müsabiqə və olimpiadaların şagirdlərin fəal həyat mövqeyinin düzgün formalaşdırılmasında əhəmiyyətli rol oynadığını qeyd edib.

Sonra inşa yazı müsabiqəsində və fənn olimpiadasında yer tutan şagirdlərə fəxri fərmanlar, diplomlar və hədiyyələr təqdim olunub.

**✍ Sona MİRZƏYEVA**

*1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

## Uşaqlara qayğı göstərmək hər bir xalqın gələcəyinə xidmət edir

***1950-ci il iyunun 1-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən keçirilən Qadınların Beynəlxalq Konfransında uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər irəli sürülərək qəbul edilmişdir. Həmin tarixdən etibarən dünyanın əksər ölkələrində 1 iyun “Uşaqları Beynəlxalq Müdafiə Günü” kimi qeyd olunur.***

Tarix boyu Azərbaycanda uşaqlara xüsusi qayğı olmuşdur. Xalqımızın ən nəcib, ən gözəl xüsusiyyətlərindən biri də odur ki, insanlar həyatlarının mənasını gənc nəslin istər fiziki, istərsə də mənəvi cəhətdən sağlam böyüməsində, şəxsiyyət kimi formalaşmasında görürlər.

Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərliyinin bütün dövrlərində uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına xüsusi diqqət göstərmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmizdə dövlət uşaq siyasətinin əsası qoyulmuş, 1998-ci ildə “Uşaq hüquqları haqqında” və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Həmçinin ölkəmiz Birləşmiş Millətlər Təşkilatının “Uşaq hüquqları haqqında” Konvensiyasına qoşulmuş, “Uşaq hüquqları haqqında” Bəyannaməsini qəbul etmişdir.

***“Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uşaq problemlərinin həllinə yönəlmiş çoxsaylı dövlət proqramları qəbul edilmiş, vahid dövlət uşaq siyasətinin formalaşması istiqamətində uğurlu addımlar atılmış, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılmışdır.

Bu gün muxtar respublikada uşaqların sağlamlığının qorunmasına, təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Muxtar respublika əhalisinin 35,9 faizini, yəni 156 min 297 nəfərini uşaqlar təşkil edir. Bunlardan 1991 nəfəri sağlamlıq imkanları məhdud, 126-sı valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, 208-i övladlığa götürülmüş, 56-sı ölkədaxili və ölkədənkənar yarışların qalib və mükafatçısı olan 18 yaşınadək uşaqlardır. Son 18 ildə muxtar respublikada 200-ə yaxın ümumtəhsil məktəbi, 18 məktəbəqədər təhsil müəssisəsi, 25 uşaq musiqi məktəbi, 18 məktəbdənkənar təhsil müəssisəsi, 40 idman obyekti tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin artırılması məqsədilə 551 elektron lövhə quraşdırılmış, hər 14 şagird 1 kompüter dəsti ilə təmin olunmuşdur.

Muxtar respublikada uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ana və uşaqlara tibbi xidmətin keyfiyyəti və əhatəliliyi artırılmışdır. 2013-cü ildə muxtar respublikada on minə yaxın uşaq doğulmuşdur. Ana ölümü olmamış, körpə ölümü isə xeyli azaldılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq, uşaq müəssisələrində uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının aradan qaldırılması məqsədilə ardıcıl tədbirlər görülmüş, uşaqların elektron məlumat bankının yaradılmasına başlanılmışdır.

Uşaqların peşə məktəblərinə cəlbi, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının düzgün təşkili, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq, “Gənc istedadların “Qızıl kitabı”nın yaradılması və onlara xüsusi təqaüdlərin verilməsi isə istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Uşaqların vətənpərvərlik ruhunda formalaşmasında folklor nümunələri, kiçikhəcmli şeir və hekayələr böyük əhəmiyyət daşıyır. Bu məqsədlə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin xətti ilə “Uşaqlar və Günəş” almanaxı, “Təmsillər”, “Şeir və hekayələr”, “Poema və pyeslər” adlı uşaq kitabları hazırlanaraq nəfis tərtibatda çap edilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafı və cəmiyyətə inteqrasiyası da diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi bu baxımdan mühüm əhəmiyyət daşıyır. Dövlət proqramının qəbul olunmasında əsas məqsəd muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla bərabər təhsil hüquqlarını təmin etmək, cəmiyyətə inteqrasiyasına nail olmaq, sosial reabilitasiyasını gücləndirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi proqramın icrası ilə əlaqədar aidiyyəti təşkilatlarla birgə muxtar respublikanın 171 tam orta məktəbində, 18 məktəbəqədər və 37 məktəbdənkənar müəssisəsində, 25 uşaq musiqi məktəbində, 8 şahmat məktəbində, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində və Naxçıvan Dövlət Texniki Kollecində monitorinqlər keçirmişdir. Proqramın qarşıya qoyduğu vəzifələrin icrasına uyğun olaraq, 2014-cü ilin ötən dövrü ərzində sağlamlıq imkanları məhdud olan uşaqlardan 24-ü məktəbəqədər, 22-si məktəbdənkənar, 2-si isə tam orta məktəblərə cəlb olunmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlərin keçirilməsi də komitə tərəfindən diqqət mərkəzində saxlanılmış, doxsana yaxın bu qəbildən olan uşaqların iştirak etdiyi “Naxçıvanım mənim” mövzusunda Naxçıvan şəhər məktəbəqədər təhsil müəssisələri arasında müsabiqə, eləcə də rəsm, əl işi, musiqi müsabiqələri, şahmat yarışı keçirilmişdir.

Uşaqların milli dəyərlər əsasında düzgün tərbiyə olunması, sağlam mühitdə yetişməsi zəruri məsələlərdən biridir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında məqsədyönlü işlər görülür. Belə ki, uşaqlara milli dəyərlərin aşılanması, onların zərərli vərdişlərdən uzaqlaşdırılması, hüquqlarının qorunması və onlara vəzifələrinin düzgün öyrədilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərində seminarlar keçirilir, kütləvi informasiya vasitələrində maarifləndirici çıxışlar edilir.

*Naxçıvan Muxtar Respublikasında uşaqların hüquqlarının qorunması, təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Çünki uşaqlar xalqımızın gələcəyidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Əgər xalqımızın, dövlətimizin gələcəyini düşünürüksə, bu gələcəyin təminatçısı olan uşaq və gənclərin sağlam mühitdə yetişməsi qayğısına qalmalı, onların təlim-tərbiyəsi ilə ciddi məşğul olmalıyıq”.***

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib



Muxtar respublikada bütün sahələrdə əldə olunan yüksək nailiyyətlər uşaqlara, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqət və qayğı göstərilməsinə geniş imkanlar yaradıb. Onların asudə vaxtlarının səmərəli təşkil edilməsi, təhsil almaları, sosial qayğı ilə əhatə olunmaları daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə lazımi tədbirlər görülür. Bu qəbildən olan uşaqlara dövlət tərəfindən hər zaman həm maddi, həm də mənəvi dəstək göstərilir, istər dövlət uşaq müəssisələrində, istərsə də ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqların ehtiyacı ödənilir, onlara geyim dəstləri və dərs ləvazimatları verilir.

1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində keçirilən tədbir də bu istiqamətdə görülən işlərin davamıdır.

Sağlamlıq imkanları məhdud uşaqların iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova uşaqları əlamətdar gün münasibətilə təbrik edərək muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışıblar. Sonra uşaqlara hədiyyələr təqdim edilib.

Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayeva sağlamlıq imkanları məhdud uşaqların valideynləri və müəssisə adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Çay süfrəsi arxasında keçirilən tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklər təqdim edilib, musiqi nömrələri səsləndirilib.

* * *

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlərin keçirilməsi bəndinin icrasına uyğun olaraq, 1 İyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunan tədbirlər davam etdirilir.***

Mayın 30-da Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların gəzintisi təşkil olunub.

Parkda uşaqların istirahəti üçün hər cür şərait yaradılıb. Sağlamlıq imkanları məhdud uşaqlar əyləncə guşələrində və digər attraksionlarda əyləniblər. Həmçinin gəzintidə uşaqlara pulsuz iaşə xidməti də göstərilib.

Gün ərzində bu kateqoriyadan olan uşaqlar üçün bütün əyləncə guşələri pulsuz olub.

Həmin gün sağlamlıq imkanları məhdud uşaqlar üçün M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Nağı İsmayılzadənin "Ağca və Bozca" pyesi əsasında səhnələşdirilmiş tamaşa göstərilib.

Anaya məhəbbət, xeyirxahlıq kimi yüksək insani keyfiyyətlər təlqin edən tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

Uşaqların asudə vaxtının mənalı təşkili onlarda xoş ovqat yaradıb.

* * *

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə daha bir tədbir Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbində təşkil olunub.***

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri Zeynal Hümbətov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elçin Novruzov çıxış edərək hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlara və aztəminatlı ailələrin uşaqlarına göstərilən dövlət qayğısından bəhs ediblər.

Məktəbin direktoru Samir Zeynalov xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Tədbirdə internat məktəbində təhsil alan valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaqlara geyim dəstləri verilib.

## Daun sindromlu uşaqların valideynləri ilə görüş

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə mayın 30-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində daun sindromlu uşaqların valideynləri ilə maarifləndirici görüş keçirilib.***

Tədbirdə Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim-nevropatoloq psixoterapevti Rəfayil Orucov daun sindromlu uşaqların ailə üzvləri ilə psixoloji-mənəvi söhbət aparıb. Qeyd olunub ki, daun sindromlu uşaqlar mülayim davranışı çox sevirlər. Valideynin daun sindromlu uşağa daha çox qayğı göstərməsi, mütəmadi olaraq onunla ünsiyyətdə olması bu kateqoriyadan olan uşağın inkişafına, özünəinam hissinin artmasına, onların sosial reabilitasiyasına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu kateqoriyadan olan uşaqlar müvafiq tibb müəssisəsinə müalicəyə cəlb edilməlidirlər. Onlar cəmiyyətə qaynayıb-qarışdıqda müxtəlif vərdişlər öyrənir, danışıq qabiliyyəti inkişaf edir.

Vurğulanıb ki, əqli və fiziki cəhətdən inkişaf edən daun sindromlu uşaqlara peşəyönümü tövsiyə və məlumatların verilməsi onların özlərini anlamasına, müvafiq iş imkanlarını dərk etməsinə, bacarıqlarının inkişafına zəmin yaradır.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, tədbirin təşkil edilməsində əsas məqsəd valideynlərə bu kateqoriyadan olan uşaqlarla evdə davranışa, onların təlim-tərbiyəsinin təşkilinə və ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhət xidmətinin göstərilməsidir.

Bu qəbildən olan tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

***Mədəniyyət hər bir insanın cəmiyyətdəki davranış və tələbatlarını müəyyən edən mühüm anlayış olub, minilliklər ərzində sivilizasiyanın hərtərəfli inkişafla əldə etdiyi nailiyyətlərin göstəricisidir. Rahat yaşamaq, təkcə özünün deyil, bütün cəmiyyət üzvlərinin rifahı üçün riskləri zəmanət altına almaq isə sığorta mədəniyyəti kimi hələ yüz illər öncəsindən formalaşmağa başlamışdır.***

## Sığorta mədəniyyəti günün tələbidir

Cəmiyyətin inkişafı insanın müxtəlif mədəni tələbatlarının yaranması və onların bir kollektiv ehtiyac kimi ödənilməsi ilə mümkündür. Yəni mədəniyyət deyəndə, sadəcə, bir sahədəki inkişaf başa düşülməməlidir. Mədəniyyət həm də həyatımızın bütün sahələrində müşahidə olunan və ictimai rifahın formalaşmasına imkan verən bütün sahələrdə əldə olunan nailiyyətlərdir. İnsanların öz asudə vaxtlarını qiymətləndirib turizm səfərlərinə yollanmaları, yaxud boş vaxtlarının bir hissəsini ekoloji tərbiyəyə və ya yaşıllaşdırmaya ayırmaları, səhhətlərində hər hansı kiçik nasazlıq yarandıqda dərhal həkimə müraciət etmələri, alınmış kredit vəsaitlərinin vaxtında geri qaytarılması və habelə özlərinin həyatlarının, əmlaklarının, mülki məsuliyyətlərinin vaxtında sığortasının təmin olunmasının, son nəticədə, bütün cəmiyyətə və elə insanın özünə də necə faydalı olduğunu görməkdəyik. Ona görə də sığorta olunmaq mühüm tələbatlardan biridir və onun cəmiyyətdə yayılması müəyyən təkamül mərhələsindən keçərək, həllivacib məsələlər sırasına daxil olmuşdur. Risklərə qarşı etibarlı sığorta fondu yaradıb onun zəmanəti içində rahat yaşamağı qışa etibarlı ərzaq və yanacaq ehtiyatı yaratmaq kimi təməl ehtiyaclarla müqayisə etmək mümkündür. Bu baxımdan insanların öz həyat və fəaliyyətində buna necə əməl etmələri, digər təxirəsalınmaz işlər kimi sığorta olunmağa da çox ciddi münasibət göstərmələri günümüzün mədəni normaları arasında özünə yer tutmaqdadır.

Müasir dövrdə ailə büdcəsinə nəzarət, gəlir və xərclərin düzgün idarə olunması, sığorta savadlılığının artırılması istiqamətində insanların maarifləndirilməsinə çalışılır. Məqsəd isə odur ki, cəmiyyətdə iqtisadi inkişaf sürətləndikcə adamlar öz büdcələrinə nəzarət edə bilsinlər, başqa sözlə, ailənin iqtisadi təhlükəsizliyi təmin olunsun. Sözsüz ki, inkişaf sürətləndikcə insanlar həyat səviyyəsinin yüksəlməsi ilə daha çox maddi nemətlər istehlak etməyə, daşınmaz əmlak, avtomobil əldə etməyə, səyahətlərə yollanmağa meyil edirlər. Bu da, öz növbəsində, çoxlu miqdarda maliyyə vəsaitlərinin toplanması və sərfi ilə mümkündür.

Bununla yanaşı, insanların gözlənilməz, təsadüfi hadisələr zamanı üzləşdiyi maddi itkilər o qədər çox ola bilər ki, bu zaman uzun illər ərzində qənaətlə toplanmış bütün vəsaitlər yox ola bilər. Başqa sözlə, vaxtında sığortalanmayan daşınmaz əmlak, avtomobil və ya hər hansı fəaliyyət riskli bir hadisə ilə üzləşərkən dəymiş zərərlər insanların maddi vəziyyətini ağırlaşdırar, onları çıxılmaz vəziyyətə sala bilər. Ona görə də sığorta olunmağa ciddi münasibət bəslənilməsi adamların başına gələ biləcək riskli hadisələrin ağır nəticələrindən qorunması deməkdir ki, bu da sığorta mədəniyyətinin mühüm hissəsidir.

Cəmiyyətdə sığorta mədəniyyətinin formalaşması bir sıra amillərdən asılıdır. İlk olaraq, bu, sığorta fəaliyyətini təşkil edən müxtəlif təşkilatların, qurumların və sığorta olunmağa maraqlı olan şəxslərin qarşılıqlı etibarlı əməkdaşlığı nəticəsində formalaşır, sığorta bazarı iştirakçılarının davranışları tənzimləyən bir normalar sisteminə çevrilir. Qeyd olunduğu kimi, burda ilk mühüm şərt ölkənin maliyyə sistemindəki sabitlikdən, formalaşmış etibardan ibarətdir. Bu, elə bir vacib məqamdır ki, bu zaman sığortaolunanın sığorta edənə, sığortaedənin isə sığortaolunana qarşılıqlı inamı yaranır və sığorta tərəflər arasında inkişaf edən cəmiyyətin bir sosial sifariş modelinə çevrilir. Bundan sonra əhalinin sosial müdafiəsinin təşkil olunması, təsadüfi gözlənilməz hadisələr baş verdikdə maddi itkilərin sığorta fondu vasitəsilə əvəz olunması, beləliklə də, insanların çıxılmaz vəziyyətdən qurtarılması sığorta işini təşkil edənlərin vəzifəsinə, vaxtında sığortalanmağın üstünlüklərindən istifadə etmək isə bütün sığortaolunanların borcu və sosial məsuliyyətinə çevrilir.

Sığorta işinin təşkilində yüksək xidmət mədəniyyətinin yaradılması, sığortaolunanlarla sığortaçı qurum arasında təşkilati məsələlərin həlli ilə yanaşı, öhdəliklərin qanunvericiliklə müəyyən olunmuş qaydada yerinə yetirilməsi də bu işin vacib şərtlərindəndir. Bu isə sığorta müqaviləsi bağlanan zaman hər iki tərəfin üzərinə düşən vəzifələrin və öhdəliklərin dəqiq müəyyən olunması, onlara əməl edilməsi ilə mümkündür. Başqa sözlə, sığorta müqaviləsində əks olunmuş qaydaların sığortaçı kimi sığorta olunana da aid olunduğunu, müqavilədə göstərilməyən hallara görə sığorta ödənişinin tələb edilməsinin qanunun tələblərini pozmaq olduğunu bilmək lazımdır.

Göründüyü kimi, sığorta işinin təşkili və aparılması zamanı lazımi sənədləşmənin yerinə yetirilməsi və onun yüksək səviyyədə təşkili ilə yanaşı, öhdəliklərin icrası bu işin uğuru üçün ən vacib şərtlərdən sayılır. Baş vermiş sığorta hadisəsinin vaxtında və keyfiyyətlə araşdırılması, müqavilənin şərtlərinə uyğun sığorta ödənişlərinin verilməsi sığortaçı qurumun işi üçün ən yaxşı reklamdır. Eyni ilə sığortaolunan vətəndaşlar öz maraqlarını bildikləri kimi, dövlətin də qanunlarına ciddi yanaşmaları bu vacib sahənin fəaliyyəti üçün mühüm şərtlərdən biridir.

Beləliklə, sığortanın uğurunu, onun bütün cəmiyyəti qane edə biləcək şəkildə çoxşaxəliliyini təmin etmək yalnız dövlətin və ya bir təşkilatın üzərinə düşən iş deyil, eyni zamanda bütün vətəndaşların, sığorta oluna biləcək fiziki və hüquqi şəxslərin, bir sözlə, öz həyatını, əmlakını, mülki məsuliyyətini sığorta edən hər bir kəsin qayğısına çevrilməlidir. Bundan əlavə, cəmiyyətdə sığorta mədəniyyətinin yüksəldilməsi elm və ali təhsil müəssisələrinin, gündəlik mətbuatın da vəzifəsinə çevrilməli, hamı bu işin mütəşəkkilliyinə çalışmalıdır. Belə ki, sığorta hadisəsi baş verdikdə alınan sığorta ödənişləri çətin vəziyyətdə olan şəxslərə nə dərəcədə həyati vacibdirsə, sığorta olunmağa da ciddi yanaşaraq burada möhkəm fond yaratmaq da o dərəcədə təxirəsalınmaz və həyatidir. Çünki bədbəxt hadisənin nə vaxt gələcəyini heç kim qabaqcadan deyə bilməz. Bunun nəticələrinə biz yalnız öz mütəşəkkilliyimizlə hazırlıqlı ola bilər, özümüzün və ətrafdakı insanların gələcək normal həyatını təmin edə bilərik. Bu, hər kəsin qarşısında duran ən zəruri sığorta mədəniyyətidir.

**✍ Əli CABBAROV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Ödənişsiz məzuniyyətdən hansı hallarda istifadə hüququ yaranır?*

**Cavab**: Azərbaycan Respublikası Əmək Məcəlləsinin 128-ci maddəsinə əsasən, qohumluq borcunu yerinə yetirməsi ilə bağlı ailə, məişət və başqa sosial məsələləri təxirə salmadan həll etmək, təhsil almaq, yaradıcılıq, elmi işlə məşğul olmaq üçün, habelə yaşına, fizioloji keyfiyyətlərinə görə işdən ayrılmaq zərurəti olduqda, işçinin ödənişsiz məzuniyyətlərdən istifadə etmək hüququ vardır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti***

### *İtmişdir*

Bayramov Ariz Mübariz oğlunun adına verilmiş AZE-04607021 seriya nömrəli Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Sadiqova Çinarə Əzim qızının adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədova Gülşən Müslüm qızının adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Oğlanqala kənd sakini Abdullayev Nazim Əyyub oğlunun adına olan 61 inventar nömrəli texniki pasport və 102013003904-1032104 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini İbrahimov Qurban Allahverdi oğlunun adına olan 1410^A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Mehbalı Məhəmmədəli oğlunun adına 13 dekabr 2006-cı il tarixdə verilmiş VÖEN-0900040602 itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

"Şərq qapısı" qəzetinin kollektivi qələm yoldaşları Hüseyn Əsgərova, oğlu **ELXANIN** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Asim Yadigar, Elman Məmmədov, İbrahim Yusifoğlu, Hüseyn Şəkərəliyev Hüseyn Əsgərova, oğlu **ELXANIN** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 485